**Təcrübə mübadiləsi qarşılıqlı fayda gətirir...**

Azərbaycan Respublikası Vergilər Nazirliyinin iş təcrübəsini üyrənmək məqsədilə Belarus Respublikasının Vergilər və Yığımlar, eləcə də Maliyyə nazirliklərinin 7 nəfərdən ibarət nümayəndə heyəti Bakıda olmuşdur. Səfər zamanı qonaqlar son illər respublikamızın vergi sistemində həyata kezirilən islahatlarla, vergi üdəyicilərinə güstərilən elektron xidmətlərin və yeni informasiya texnologiyalarının tətbiqi təcrübəsi ilə tanış olmuşlar. Vergilər nazirinin müavini Sahib Ələkbərovla gürüşdə bu və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır.

Səfər təəsüratlarını üyrənmək üçün Belarus Vergilər və Yığımlar Nazirliyi Beynəlxalq vergi əməkdaşlığı idarəsinin rəisi Alla Zarlzovna Sundukovaya müraciət etdik.

Müsahibimiz qeyd etdi ki, Azərbaycanın və Belarusun vergi sistemləri bir çox ümumi cəhətlərə malikdir: vergilərin növləri və təsnifatlaşdırılmasında oxşarlıqlar mövcuddur. Məsələn, sadələşdirilmiş vergi sistemi hər iki ölkədə tətbiq edilir, vergilər isə gəlir vergisi, dolayı vergilər, əmlak vergiləri olaraq təsnifləşdirilir. Vergi dərəcələrinin səviyyələrində çox cüzi fərqlər müşahidə edilir. Məsələn, Azərbaycanda ƏDV-nin əsas dərəcəsi 18%, mənfəət vergisi 20% olduğu halda, Belarusda bu vergi növləri üzrə dərəcələr 20% və 18% təşkil edir. Azərbaycanda gəlir vergisinin dərəcəsi 14% və 30%, Belarusda 12% tətbiq edilir. Hər iki ölkədə əmlak vergisi əmlakın qalıq dəyərindən 1%-lə tutulur. Lakin Belarusda, Azərbaycandan fərqli olaraq, daşınan əmlak vergitutma obyekti sayılmır. Sadələşdirilmiş vergitutma sistemi Azərbaycanda 2- 4%, Belarusda isə 3 - 5% təşkil edir. A. Sundukovanın sözlərinə görə, hər iki dövlətin vergi orqanları vergilərin könüllü ödənişinin stimullaşdırılmasına istiqamətlənmiş tədbirlərə, ödəyicilərə göstərilən xidmətlərin genişləndirilməsinə, vergi inzibatçılığına sərf edilən xərclərin azaldılması, səmərəliliyin artırılması məqsədilə müasir informasiya texnologiyalarının tətbiq edilməsinə daha çox diqqət ayırırlar.

Ölkələrimizin vergi sistemləri arasındakı fərqli cəhətlərdən danışan A. Sundukova bildirmişdir ki, Belarus Respublikasının Gömrük İttifaqına daxil olmasından irəli gəlir. 2010-cu il iyulun 1-dən etibarən dövlətlər arasında sərhədlərdə gömrük nəzarətinin və gömrük rəsmiləşdirməsinin ləğv edilməsi ilə əlaqədar Belarusun vergi orqanları Rusiya və Qazaxıstanın vergi orqanları ilə bərabər Gömrük İttifaqına daxil olan dövlətlər arasında məhsulların idxalı və ixracı zamanı dolayı vergilərin tətbiqini həyata keçirir. İdxal zamanı vergitutmanın və ixrac zamanı ƏDV-nin əvəzləşdirilməsinin (qaytarılmasının) düzgünlüyünə nəzarətin təşkili vergi inzibatçılığının yeni mexanizmlərinin və Gömrük İttifaqı üzrə həmkarlarla sıx qarşılıqlı münasibətlərin tətbiqini zəruriləşdirir. Bundan əlavə, iqtisadiyyatın strukturu da vergi qanunvericiliyinə və ödənişlərin inzibatçılıq qaydasına təsir edir. Belarus ixraca istiqamətlənmiş ölkədir. İqtisadiyyatın əsas sektorlarını ağır maşınqayırma, neft-kimya, kimya kompleksləri, ərzaq, yüngül sənaye və nəqliyyat məhsullarının istehsalı təşkil edir. Nəticə etibarilə vergi orqanları ixrac zamanı ƏDV-nin sıfır dərəcəsinin tətbiqinə xüsusi diqqət yetirirlər. Mədən sənayesi ehtiyatlarından danışan A. Çarlzovna Belarusun daşlaşmış duz ehtiyatına malik olduğunu və dünyada daş duz istehsalı üzrə ixtisaslaşan altı ölkə sırasına daxil olduğunu bildirir.

«İqtisadiyyatın bu özəllikləri 90%-i vergi daxilolmalarının hesabına formalaşan büdcənin gəlir hissəsinin strukturunu şərtləndirmişdir. Verginin xüsusi çəkisinin yüksək olması vergi orqanlarının üzərinə böyük məsuliyyət qoyur. Vergi inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi bir tərəfdən vergidənyayınma hallarını istisna edir, digər tərəfdən isə ödəyicilərin vergilərin hesablanmasına və ödənilməsinə sərf etdikləri xərclərin minimallaşmasına səbəb olur», - A.Sundukova bildirib.

Belarus nümayəndəsi Maliyyə Nazirliyinin xəzinədarlığı hesabında ƏDV-nin vahid depozit hesabı ilə tutulmasının təşkili və elektron hesab-fakturaların açılması üzrə Azərbaycanın təcrübəsini olduqca əhəmiyyətli hesab etdiyini bildirmişdir: «ƏDV ilə bağlı dələduzluq bir çox ölkələrdə büdcənin gəlirlərinin əhəmiyyətli hissəsinin itməsinə gətirib çıxarır. ƏDV tətbiq edilən bütün dövlətlərin vergi orqanları vergi cinayətlərinə qarşı mübarizədə çoxlu vəsait xərcləyirlər. Buna görə də Azərbaycan Vergilər Nazirliyinin ƏDV-dən yayınma hallarının aradan qaldırılması sahəsində əldə etdiyi uğurlu nəticələr maraq doğurur və biz bu sahədə təcrübə mübadiləsi apara bilərik.

Azərbaycanda vergi ödəyicilərinə xidmət mərkəzlərinin və nağd ödənişlərə nəzarət məqsədilə nəzarət-kassa aparatlarına elektron məsafədənötürmə qurğularının tətbiqi üzrə təcrübəsi də maraq doğurur. Əməkdaşlıq üçün perspektivli istiqamətlərdən biri də elektron auditin

tətbiqidir. Belarusun Vergilər və Yığımlar Nazirliyi tərəfindən vergi ödəyicilərinə hüquqi əhəmiyyətli elektron sənədlərin vergi orqanlarına təqdim etmələrinə imkan verən açıq açarlar infrastrukturu tətbiq edilir. Bununla bərabər, analitik hesabatların formalaşdırılması, nəzarət orqanlarının məlumatlarının işlənməsi və emalı məqsədilə informativ-analitik sistem yaradılmışdır. Düşünürəm ki, gələcəkdə müvafiq istiqamətlərdə təcrübə mübadiləsi əhəmiyyətli olacaq».

Arzu İBRAHİMOVA